**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazma hüququnda*

# DAVAMLI İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ DÖVLƏT VƏ ÖZƏL SEKTORLAR ARASINDA ƏMƏKDAŞLIQ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

| | |
|---|---|
| İxtisas: | 5308.01 – "Ümumi İqtisadiyyat" |
| Elm sahəsi: | 53 – İqtisad elmləri |
| İddiaçı: | **Aslan Həsənağa oğlu İbrahimov** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün

təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı - 2024**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadiyyat" kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Gülnarə Şükür qızı Mikayılzadə**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Səfər Həsən oğlu Pürhani**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Lalə Adil qızı Həmidova**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Səkinə Abdurahim qızı Hacıyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:** iqtisad elmləri doktoru, professor
**Yaşar Atakişi oğlu Kəlbiyev**

ÜMUMİ ŞÖBƏ

**Dissertasiya şurasının elmi katibi:** iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Suqra İnqilab qızı Hümbətova**

**Elmi seminarın sədri:** iqtisad elmləri doktoru, professor
**Rəsul Ənvər oğlu Babayev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ölkənin davamlı inkişafının təmin edilməsində dövlət və özəl sektorları arasında əməkdaşlıq mexanizminin təkmilləşdirilməsi məsələləri bir çox mürəkkəb problemlərin hərtərəfli nəzərdən keçirilməsini və dövlət strukturlarının fəaliyyətinin ən mühüm istiqamətlərinin müəyyən edilməsini, dövlət və özəl sektor subyektləri arasında qarşılıqlı əlaqəni, habelə milli iqtisadiyyatın və bütövlükdə cəmiyyətin sabitliyinin təmin edilməsini şərtləndirir. Bütün sahələrdə, o cümlədən iqtisadi sahədə mövcud mexanizmlərdə dərin transformasiyaların baş verdiyi indiki şəraitdə, dövlət, sosial-iqtisadi problemlərin yumşaldılması, ölkə əhalisinin həyat şəraitinin yaxşılaşdırılması, gəlirlərinin artırılması, işsizliyin azaldılması nəzərə alınmaqla, milli iqtisadiyyatın və cəmiyyətin inkişafında yığılmış problemlərin həllində dövlət və özəl sektorları arasında qarşılıqlı əlaqənin harmonizasiyasını təmin etməli və bununla da ölkə iqtisadiyyatının dinamik inkişafı məsələlərinin həllində dövlət və cəmiyyət arasında daha etibarlı münasibətlər yaratmalıdır.

1992-ci ildə BMT-nin Ətraf Mühitin Mühafizəsi və İnkişafı Komitəsinin Konfransında həyata keçirilməsi bəşər sivilizasiyasını yeni inkişaf səviyyəsinə çatdırmaq məqsədi daşıyan qlobal əməkdaşlıq proqramı olan “21-ci əsrin Gündəliyi” qəbul edildi. Bu gündəlikdə dayanıqlı inkişafın mahiyyəti açıqlanır.

Bu proqram aşağıdakı prinsiplər əsasında həyata keçirilir: insanların sağlamlığının təmin edilməsi; əhalinin əsas yaşam ehtiyaclarının ödənilməsi; əhalinin həyat keyfiyyətinin yüksəldilməsi, istehsal və istehlakın rasional strukturunun qurulması; ekoloji təhlükəsizliyin təmin edilməsi; təhsil prosesində ekoloji şüurun və əxlaqın formalaşdırılması; vətəndaş cəmiyyətinin formalaşması; insana və təbiətə qarşı zorakılığın bütün mümkün formalarının aradan qaldırılması, o cümlədən qlobal tərəfdaşlıq və s.

Covid-19 pandemiyasının təsiri dövründə dövlət və özəl sektorlar arasında mexanizmin və qarşılıqlı əlaqənin gücləndirilməsi cəmiyyətdəki gərginliyin azaldılması və böhran hadisələrinin qarşısının alınması üçün görülən tədbirlərin effektivliyini artıra bilər.

Qarşıdan gələn illərdə yeni yaradılmış iqtisadi rayonlarda - Qarabağ və Şərqi Zəngəzur rayonlarında sosial və istehsalat infrastrukturunun yaradılması, kommunal xidmətlərin fasiləsiz fəaliyyətinin təmin edilməsi, qaçqınların öz doğma yurdlarına qaytarılması istiqamətində çoxsaylı layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Hesab edirik ki, nəzərdə tutulan işlərin intensivləşdirilməsi üçün dövlət və özəl strukturların xüsusilə sıx qarşılıqlı fəaliyyəti və əməkdaşlığı tələb edilir.

Yuxarıda göstərilən bütün istiqamətlər üzrə fundamental tədqiqat işlərinin aparılması, müasir şəraitdə dövlət və özəl sektor arasında səmərəli əməkdaşlığı təmin edə biləcək ən mühüm sahələrin və mexanizmlərin öyrənilməsi zəruridir. Bütün bu amillər dissertasiya işinin seçilmiş mövzusunun aktuallığını müəyyən edir.

Qeyd etmək lazımdır ki, davamlı inkişafın təmin edilməsində dövlət və özəl sektorları arasında əməkdaşlıq mexanizminin təkmilləşdirilməsi, daha səmərəli mexanizmlərin işlənib hazırlanması və tətbiqi üçün nəzəri və metodoloji əsasların ən mühüm problem və məsələləri yerli mütəxəssislərin və xarici alimlərin elmi işlərində araşdırılmışdır. Onların arasında A.A.Nadirov, Z.A.Səmədzadə, Ü.K.Ələkbərov, A.X.Nuriyev, Ş.M.Muradov, A.K.Ələsgərov, A.C.Muradov, A.Ş.Şəkərəliyev, T.X.Hüseynov, A.Q.Əlirzayev, M.A.Əhmədov, İ.M.Abbasov, T.N.Əliyev, Ş.T.Əliyev, R.A.Balayev, F.A.Qənbərov, V.A.Qasımlı və b. kimi azərbaycanlı alim və tədqiqatçılar var.

Bundan əlavə, davamlı inkişaf kontekstində dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizminin təkmilləşdirilməsinin nəzəri və metodoloji aspektləri dünyanın bir sıra alim və tədqiqatçılarının əsərlərində araşdırılmışdır: A. Smit, P. A. Samuelson, U. D. Nordhaus, M. Porter, R. N. Kuper, P. Krugman, E. Engel, R. Fişer, A. Galetoviç, A. P. Gradov, S. N. Baburin, A. D. Ursul, V. G. Varnavskiy, A. V. Klimenko , V. A. Zimin, A. O. İvanova, E. R. Yeskomb, A. S. Korçagina, S. A. Koçetkova və s.

Bununla yanaşı, qısa və uzunmüddətli perspektivdə dayanıqlı inkişafın təmin edilməsində dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizminin dərindən təkmilləşdirilməsi tələb olunur.

**Tədqiqatın obyekti** - dövlət-özəl tərəfdaşlıqda iştirak edən dövlət və özəl strukturlardır.

**Tədqiqatın predmeti** - dövlət qurumları ilə biznes arasında münasibətlər, eləcə də Azərbaycanın davamlı inkişafının təmin edilməsi mexanizmləridir.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi - müasir şəraitdə Azərbaycanın davamlı inkişafına yönəlmiş iqtisadi siyasətin həyata keçirilməsində əsas amil kimi dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizminin təkmilləşdirilməsindən ibarətdir. Bununla əlaqədar olaraq aşağıdakı vəzifələri yerinə yetirmək nəzərdə tutulmuşdur:

– qlobal transformasiyalar şəraitində davamlı inkişafın təmin edilməsində dövlət və özəl sektorlar arasında əməkdaşlığın nəzəri və metodoloji əsaslarının öyrənilməsi;
– müasir şəraitdə dövlət və özəl sektor arasında qarşılıqlı əlaqənin təkmilləşdirilməsi və gücləndirilməsinin metodoloji yanaşmalarının və xüsusiyyətlərinin nəzərə alınması;
– dünyanın müxtəlif ölkələrində dövlət və özəl sektorlar arasında qarşılıqlı əlaqənin təkmilləşdirilməsi üzrə beynəlxalq təcrübənin təhlili və sintezi;
– mövcud şəraitdə Azərbaycanda dövlət və özəl sektor arasında əməkdaşlığın vəziyyətinin təhlili və qiymətləndirilməsinin aparılması;
– Azərbaycanda dövlət və özəl sektor arasında əməkdaşlıq sahəsində potensialdan istifadənin əsas amillərinin qiymətləndirilməsinin aparılması;
– Azərbaycanda dövlət və özəl sektorlar arasında əməkdaşlıq mexanizminin təkmilləşdirilməsi üçün əsas prioritetlərin və perspektiv istiqamətlərin müəyyən edilməsi;
– Azərbaycanın dövlət və özəl sektorları arasında qarşılıqlı fəaliyyət sahəsində institusional bazanın gücləndirilməsi və hüquqi bazanın təkmilləşdirilməsi mexanizmlərinin işlənib hazırlanması;
– Azərbaycanın regionlarında dövlət və özəl sektorlar arasında əməkdaşlığın dərinləşdirilməsi üçün prioritet sahələrin müəyyən edilməsi;

- Müasir şəraitdə Azərbaycanın davamlı inkişafının təmin edilməsi üçün dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizminin təkmilləşdirilməsinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi və təkliflərin hazırlanması və s.

**Tədqiqatın metodları.** Tədqiqatın metodoloji bazası dünyanın müxtəlif tədqiqatçı alimlərinin, o cümlədən azərbaycanlı alimlərin dayanıqlı inkişafın təmin edilməsində dövlət və özəl sektorları arasında əməkdaşlığın gücləndirilməsi mexanizmlərinin təkmilləşdirilməsi problemləri və məsələlərinə dair əsərlərindən formalaşdırılıb. Tədqiqat zamanı ümumi məlum iqtisadi metodlardan, o cümlədən təhlil, sintez, müqayisə, ümumiləşdirmə, tədqiq olunan məsələlərə müəllifin yanaşmaları və s. kimi metodlardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatın strukturuna əsasən, dissertasiya işinin aşağıdakı müddəaları müdafiəyə təqdim olunur:

1. Davamlı inkişafın təmin edilməsi kontekstində dövlət və özəl sektorlar arasında mövcud əməkdaşlıq mexanizmlərinin və alətlərinin yenilənməsinə və əsaslı surətdə təkmilləşdirilməsinə ehtiyac vardır.
2. Müasir şəraitdə metodoloji yanaşmaların işlənib hazırlanması, dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi üçün əsaslandırılmış tədqiqatların aparılması zəruridir.
3. Dövlət və özəl sektorlar arasında qarşılıqlı əlaqənin yaxşılaşdırılması üçün qabaqcıl beynəlxalq təcrübədən istifadə ilə bağlı hərtərəfli araşdırma, sistemləşdirmə və adekvat qərarlar qəbul etmək lazımdır.
4. Ölkənin davamlı inkişafı üçün əsas tələblər kontekstində dövlət və özəl sektorlar arasında əməkdaşlıq sferasının obyektiv təhlili və qiymətləndirilməsi zəruridir.
5. Əsas fəaliyyət istiqamətlərinin obyektiv qiymətləndirilməsi və bu sahədə mövcud potensialın tam üzə çıxarılması ilə dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizmlərinin təmin edilməsi strateji əhəmiyyət kəsb edir.

6. Müasir qlobal çətinliklər şəraitində dövlət və özəl sektorlar arasında qarşılıqlı əlaqəni gücləndirmək üçün institusional bazanın gücləndirilməsi zəruridir.
7. İqtisadi resurslardan səmərəli istifadəni nəzərə almaqla, ölkənin regionlarında dövlət və özəl sektor arasında əməkdaşlığın dərinləşdirilməsinin əsas istiqamətlərinin və prioritetlərinin müəyyən etmək lazımdır.
8. Qlobal təhlükələr şəraitində Azərbaycanın davamlı inkişafının təmin edilməsi üçün dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizminin təkmilləşdirilməsinin əsas istiqamətlərinin əsaslandırılmasına və müəyyənləşdirilməsinə ehtiyac vardır.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- davamlı inkişafın təmin edilməsində dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsinə elmi-praktik yanaşmalar işlənib hazırlanmış və müasir şəraitdə dövlət-özəl əməkdaşlığının mühüm prinsipləri müəyyən edilmişdir;
- müasir şəraitdə davamlı inkişaf kontekstində dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizminin nəzəri aspektlərinin əsas elementləri müəyyən edilmişdir;
- resurs potensialının qorunması və səmərəli istifadəsi nəzərə alınmaqla yeni çağırışlar şəraitində dövlət və özəl sektor arasında əməkdaşlığa dair ən mühüm metodoloji yanaşmalar işlənib hazırlanmışdır;
- ölkənin davamlı inkişafına uyğun olaraq dövlət-özəl sektor əməkdaşlığı layihəsinin həyata keçirilməsi mərhələləri müəyyən edilmiş və əsaslandırılmışdır;
- dövlət-özəl əməkdaşlıq layihələrinin həyata keçirilməsi üçün tərəfdaşlar arasında məsuliyyətin əsas aspektlərinin alqoritm – diaqramı hazırlanmışdır;
- iqtisadi-təşkilati, maliyyə aspektləridə və müqavilə münasibətləri sahəsində dövlət-özəl tərəfdaşlıq əlaqələrinin təkmilləşdirilməsi üçün səmərəli istiqamətlər müəyyən edilib;
- ölkə iqtisadiyyatının davamlı sosial-iqtisadi artımına və regional resurslardan səmərəli istifadəyə nail olmaq məqsədilə regional kontekstdə dövlət və özəl sektorlar arasında əməkdaşlığın

inkişafının idarə edilməsi üçün təşkilati-iqtisadi mexanizmlər hazırlanıb;

- qlobal təhlükələr kontekstində Azərbaycanda davamlı inkişafın təmin edilməsində dövlət və özəl sektorlar arasında əməkdaşlıq mexanizminin təkmilləşdirilməsinin əsas istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**

Dissertasiya işinin əsas elmi və praktiki nəticələri dövlət və özəl sektor arasında əməkdaşlıq sahəsində davamlı məqsədyönlü işlərin təşkili ilə məşğul olan və bu sahənin gücləndirilməsi üçün kompleks tədbirlər, strategiyalar və praktiki mexanizmlərə məsuliyyət daşıyan tədqiqatçılar, mütəxəssislər və dövlət orqanlarının nümayəndələri üçün faydalı ola bilər. Dissertasiya işinin materiallarından mühazirələrin, dərsliklərin, dərs vəsaitlərinin hazırlanmasında, fənn proqramlarının tərtibində və s. istifadə etmək olar.

**Aprobasiyası və tətbiqi**

Dissertasiya işi üzrə ümumilikdə 9 elmi əsər, o cümlədən 6 məqalə, 3 tezis dərc edilmişdir. Bunlardan 1 məqalə və 1 avtoreferat xaricdə çap olunub. Tədqiqatın nəticələri aşağıdakı məqalələrdə: “Azərbaycanın davamlı inkişafının təmin edilməsində dövlət və özəl sektorlar arasında əməkdaşlığın gücləndirilməsi” (“Geostrategiya” jurnalı, Bakı, 2020), “Davamlı inkişaf kontekstində dövlət və özəl sektorlar arasında əməkdaşlıq mexanizminin təkmilləşdirilməsinin aktual problemləri” (“Xəbərlər” jurnalı (AMEA İqtisadiyyat İnstitutu, Bakı, 2020), “Müasir şəraitdə dövlət və özəl sektor arasında qarşılıqlı əlaqənin təkmilləşdirilməsi üzrə dünya ölkələrinin təcrübəsi” (“Xəbərlər” jurnalı (AMEA İqtisadiyyat İnstitutu, Bakı, 2021), “Dövlət-özəl tərəfdaşlıq layihələrində riskləri nəzərə alan nəzəri və metodoloji yanaşmaların ən mühüm aspektləri” (“Geostrategiya” jurnalı, Bakı, 2022) və “Azərbaycanda dövlət və özəl sektorlar arasında əməkdaşlıq mexanizminin gücləndirilməsinin qiymətləndirilməsi və perspektivləri” (“Финансовая экономика” jurnalı, Rusiya, Moskva. 2022), və tezislərdə: “Qlobal risklərin artması şəraitində dövlət və özəl sektor arasında əməkdaşlığın vacib aspektləri” (“İnformasiya cəmiyyətində iqtisadiyyatin davamli inkişaf problemləri” mövzusunda Beynəlxalq Elmi konfransının materialları.

Sumqayıt, 2021), "Dövlət və özəl sektor arasında əməkdaşlıq proseslərində texnoparkların rolu" ("Azərbaycan və Türkiyənin iqtisadi əməkdaşlığının strateji istiqamətləri. Beynəlxalq Elmi konfransının materialları. Sumqayıt Dövlət Universiteti və Yildiz Teknik Üniversitesi. Sumqayıt, 2022) və "Azərbaycanın regionlarında dövlət və özəl sektorlar arasında əməkdaşlığın inkişafının ən mühüm məsələləri" ("İnformasiya cəmiyyətində sivilizasiyanın və davamlı inkişafın müasir problemləri" XI Beynəlxalq elmi-praktik konfransının materialları. Rusiya, Moskva, 2022) təqdim olunur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmişdirr.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işinin ümumi həcmi 255433 işarə olmaqla, girişdən (14861 işarə), 3 fəsildən (I fəsil - 75577 işarə, II fəsil - 64581 işarə, III fəsil - 57950 işarə), nəticə (9440 işarə) və 193 adda ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin həcmi şəkillər, cədvəllər, qrafiklər və ədəbiyyat siyahısı istisna olmaqla, 222372 işarə təşkil edir.

## Mündəricat

**Giriş**
**I fəsil. Davamlı inkişafın təmin edilməsində dövlət və özəl sektorlar arasında əməkdaşlığın nəzəri və metodoloji əsasları**
1.1. Davamlı inkişaf kontekstində dövlət və özəl sektor arasında əməkdaşlığın nəzəri aspektləri
1.2. Dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizminin təkmilləşdirilməsinə metodoloji yanaşmalar
1.3. Dövlət və özəl sektorlar arasında qarşılıqlı əlaqəni təkmilləşdirmək üçün mütərəqqi formalar və beynəlxalq təcrübə
**II fəsil. Azərbaycanda dövlət və özəl sektor arasında əməkdaşlıq sferasının təhlili və qiymətləndirilməsi**
2.1. Ölkənin davamlı inkişafına müvafiq olaraq dövlət və özəl sektor arasında əməkdaşlıq sferasının mövcud vəziyyətinin təhlili
2.2. Risklər nəzərə alınmaqla, dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizminin səmərəliliyinin qiymətləndirilməsi
2.3. Dövlət-özəl əməkdaşlıq potensialının istifadəsində əsas amillərin qiymətləndirilməsi
**III fəsil. Azərbaycanda dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizminin təkmilləşdirilməsinin prioritetləri və perspektivləri**
3.1. Azərbaycanda dövlət və özəl sektor arasında münasibətlərin institusional və hüquqi bazasının gücləndirilməsinin strateji aspektləri
3.2. Regional kontekstdə dövlət və özəl sektorlar arasında əməkdaşlığın dərinləşdirilməsinin müasir aspektləri
3.3. Azərbaycanın davamlı inkişafının təmin edilməsində dövlət və özəl sektor arasında əməkdaşlığın təkmilləşdirilməsi prioritetləri
**Nəticə**
**İstifadə edilmiş ədəbiyyat siyahısı**

## MÜDAFİƏYƏ ÇIXARILAN ƏSAS MÜDDƏALAR:

**1. Qlobal təsirlər şəraitində davamlı inkişaf kontekstində dövlət və özəl sektorlar arasında əməkdaşlıq sahəsində mövcud mexanizm və vasitələrin yenilənməsinə və dərindən təkmilləşdirilməsinə ehtiyac yaranmışdır.**

Davamlı inkişaf kontekstində dövlət və özəl sektor arasında əməkdaşlığın nəzəri aspektləri məsələləri iqtisadiyyatın bütün sahələrinə kompleks və sistemli yanaşmaları şərtləndirir. 2000-ci ildə Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə davamlı inkişaf üçün qlobal platforma yaradılmış, bu layihəyə 135 ölkə və 7000-dən çox şirkət cəlb edilmişdir. Bu layihənin məqsədi ondan ibarətdir ki, alternativ enerji ehtiyatları mənbələrinin dərinləşdirilməsinə strateji ehtiyac var. Bundan əlavə, 1992-ci il iyunun 3 və 4-də Rio-de-Janeyroda keçirilən BMT-nin konfransında bəşəriyyətin üzləşdiyi qlobal çağırışlar və problemlər nəzərdən keçirilərək, ən mühüm prinsiplər müəyyən edilmişdir[1]. Bu prinsiplərin əsasında aşağıdakılar durur: ətraf mühitin mühafizəsi, mövcud ehtiyatlardan səmərəli istifadə, əhalinin həyat şəraitinin yaxşılaşdırılması və s.

Şəkil 1-də, ümumilikdə, müasir şəraitdə davamlı inkişaf kontekstində dövlət və özəl sektorlar arasında əməkdaşlığın nəzəri aspektlərinin əsas elementləri təqdim edilir.

Son onilliklər ərzində Azərbaycanda milli iqtisadiyyatın strukturunun genişləndirilməsi, ilk növbədə, yüksək texnologiyaların tətbiqi və milli innovasiya sisteminin formalaşdırılması sahəsində kompleks və ardıcıl tədbirlər həyata keçirilir. Burada milli iqtisadiyyatın inkişafının ən mühüm aspektləri araşdırılır, və davamlı inkişaf konsepsiyasına əsaslanaraq, 3 ən mühüm istiqaməti nəzərdən keçirmək düzgün olardı: 1) davamlı iqtisadi inkişafın təmin edilməsi; 2) ekosistemin qorunması və bərpası, bütövlükdə cəmiyyətdə sosial ədalətin təmin edilməsi.

[1] Ətraf Mühit və İnkişaf üzrə Rio Bəyannaməsi. 3-4 iyun 1992-ci il. BMT Konfransı //A/CONF.151/26/Rev.1 (Vol.1). – c.7. [Elektron resurs] / URL: http://www.un.org.




**Şəkil 1. Müasir şəraitdə davamlı inkişaf kontekstində dövlət və özəl sektor arasında əməkdaşlığın nəzəri aspektlərinin əsas elementləri (müəllif tərəfindən hazırlanmışdır).**

Təbii ki, bu konseptual yanaşmalar dövlət və cəmiyyətin ahəngdar inkişafına, bütövlükdə ölkənin təbii və iqtisadi ehtiyatlarının resurs potensialından səmərəli istifadə etməyə imkan verəcək[2].

Yaxın gələcəkdə, 2030-cu ilə qədər Azərbaycan azad edilmiş ərazilərin erməni işğalından dirçəldilməsi kontekstində Milli

[2] Ələkbərov, U.K. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. – Bakı: – 2013, - c.134.

Prioritetlərin həyata keçirilməsi üçün çoxsaylı vəzifələri həll etməli olacaq.

**2. Müasir şəraitdə metodoloji yanaşmaların əsaslı araşdırılması, müəyyənləşdirilməsi, metodoloji alətlərin ümumiləşdirilməsi və dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi tələb olunur.**

Metodoloji yanaşmalar və təkmilləşdirmə xüsusiyyətləri, o cümlədən dövlət və özəl sektorun mexanizmlərinin gücləndirilməsi məsələləri elə bir elementlərin və komponentlərin işlənib hazırlanmasını, dövlət və özəl sektorun mövcud mexanizmlərinin təkmilləşdirilməsi üçün adekvat vasitələrin müəyyən edilməsini tələb edir ki, bunlar daha çox uğur qazandırsın və qlobal təhdidlərə və təsirlərə qarşı mübarizəni təmin etsin. "Əsas tələb - innovasiyaları dəstəkləmək və inkişaf etdirməkdir. Qarşıya qoyulan vəzifələrin həllində dövlət-özəl sektor əməkdaşlığı mühümyer tutur"[3]. Ümumilikdə, dövlət-özəl əməkdaşlığın inkişafı üçün ən perspektivli istiqamətlər aşağıdakılardır: sosial istiqamət, mənzil-kommunal təsərrüfatı, idman, səhiyyə və s. "Dövlət-özəl sektor əməkdaşlığı mexanizmi bir sıra müsbət xüsusiyyətlərə malikdir ki, bu da onu region üçün strateji əhəmiyyətli alətə çevirir"[4].

Dövlət və özəl əməkdaşlığının ən mühüm metodoloji xüsusiyyətləri Şəkil 2-də öz əksini tapmışdır.

Metodoloji baxımdan dayanıqlı inkişaf prosesində dövlət-özəl sektor əməkdaşlığı mexanizminin təkmilləşdirilməsi üçün beş istiqaməti ayırmaq olar: 1) ölkədə infrastrukturun səmərəli inkişafı üçün planlaşdırmanın proqnozlaşdırılmasından istifadə; 2) Dövlət-özəl əməkdaşlığı sahəsində inzibati, hüquqi və metodoloji bazanın formalaşdırılması; 3) Ölkə, region və bələdiyyə səviyyəsində dövlət-özəl əməkdaşlığının idarəetmə sisteminin formalaşdırılması; 4) Dövlət-özəl əməkdaşlıq layihələrinin maliyyələşdirilməsi mexanizmlərinin yaradılması, bu tipli layihələrin sayının artırılması və onların

[3] Прудников, И.А. Государственно-частное партнерство как драйвер роста современной экономики / И.А.Прудников, А.М.Ротарь // Путеводитель предпринимателя. – 2021. Т.14. № 2, – с.123

[4] Кочетков, В.В. Развитие государственно-частного партнерства в регионе / В.В. Кочетков, С. А. Кочеткова // Контентус. – 2021. № 1(102), – с.30.

ümumi səmərəliliyinin təmin edilməsi yolu ilə; 5) rəqabətin formalaşması və xidmətlər bazarının inkişafı və s.




**Şəkil 2. Müasir şəraitdə dövlət və özəl əməkdaşlığın ən mühüm metodoloji xüsusiyyətləri**
*(müəllif tərəfindən tədqiqat materialları əsasında hazırlanmışdır)*

## 3. Dövlət və özəl sektorlar arasında qarşılıqlı əlaqənin təkmilləşdirilməsi üçün mütərəqqi beynəlxalq təcrübənin

**tətbiqinə dair məlumatların kompleks öyrənilməsi, ümumiləşdirilməsi və adekvat qərarların qəbulu tələb olunur.**

Dünyada dövlət-özəl tərəfdaşlıq mexanizmi uzun müddətdir istifadə olunur və daim təkmilləşdirilir. Lakin bu mexanizmin tətbiqi sürəti dünyanın müxtəlif ölkələrində müxtəlif mərhələlərdədir. Təhsil sistemində ABŞ regionlarının inkişafı (yeni kollec və universitetlərin yaradılması), yüksək texnologiyalı istehsal strukturlarının, nəqliyyat infrastrukturunun, su təchizatı sistemlərinin və s. inkişafı üçün ayrı-ayrı iri layihələr xüsusilə möhtəşəmdir[5]. Qeyd edək ki, ABŞ-da özəl sektor subyektləri daha çox infrastruktur layihələrinin həyata keçirilməsində iştirak edirlər ki, bu da davamlı iqtisadi inkişaf göstəricilərinə müsbət təsir göstərir. Məsələn, ABŞ-da özəl sektor subyektləri lazımi maliyyə resurslarını əldə edərək, infrastruktur layihələrinin 56%-ni yol tikintisi sahəsində, 25%-ni dəmir yolu relslərinin çəkilməsi sahəsində, 11%-ni su təchizatında, 8%-ni isə binaların tikintisi və s. sferalarda reallaşdırırlar[6].

Yaponiyada həyata keçirilən dövlət-özəl tərəfdaşlığı xüsusi diqqətə layiqdir. Dövlət qurumları ilə özəl sektor subyektləri arasında əməkdaşlığın müxtəlif istiqamətləri üzrə əlverişli mühit yaradılmışdır. "Yaponiya istehsal və sosial infrastrukturun müxtəlif sahələrində dövlət-özəl sektor tərəfdaşlığının forma və metodlarından istifadədə, habelə bu sahədə dövlət tənzimlənməsində kifayət qədər təcrübə toplayan ölkələrdəndir"[7]. Yaponiya hökuməti infrastruktur və digər sosial istiqamətlər üzrə iri investisiya, innovasiya və prioritet layihələri ardıcıl olaraq maliyyələşdirir. Türkiyədə dövlət və özəl tərəfdaşlıq sahəsində müsbət təcrübə toplanılıb. Türkiyə bu sahədə Avropa ölkələri arasında ön sıralardadır və iri dövlət-özəl əməkdaşlığı layihələri arasında dəyəri 3,1 milyard avro olan Canakkale körpüsünü, 1,2 milyard avro dəyərində Ankara-Niqdə avtomobil magistralını, Bilkənd Universitetindəki 711 milyon avro dəyərində olan laboratoriyanı və başqalarını qeyd etmək olar. Türkiyə dövləti DÖT subyektlərinin

---

[5] Шаманина, Э.А. Сферы применения государственно-частного партнерства в США // Государственно-частное партнерство. – 2016. Т.3. № 2, – с.139.

[6] Closing America's Infrastructure Gap: The Role of Public-Private Partnerships: A Deloitte Research Study. – 2014.– c.36.

[7] Иванова, А.О. Развитие государственно-частного партнерства в Японии. Дисс. канд. экон. наук. / Москва, 2010. – с.69.

gücləndirilməsi və bu sahədə prioritet layihələrin təşviqi üçün əlverişli şərait yaratmışdır [8].

Dövlət-özəl tərəfdaşlıq sahəsində beynəlxalq təcrübənin əsas prioritetlərini ümumiləşdirsək, aşağıdakı nəticələri əldə etmiş olarıq: nəqliyyat infrastrukturunun, o cümlədən avtomobil yollarının, hava limanlarının, dəmir yollarının tikintisi, saxlanması və istismarı; mənzil-kommunal təsərrüfatı - drenaj, tullantıların yığılması, kommunal xidmətlərin təşkili və mənzil fondunun təmiri; ekoloji obyektlər - su təmizləyici qurğular, faydalı qazıntıların hasilatı və emalı; daşınmaz əmlakın, o cümlədən mənzil fondunun, ictimai və sosial infrastruktur obyektlərinin tikintisi və istismarı; ictimai asayişin mühafizəsi sahəsində dövlət xidmətlərinin təşkili; rabitə, o cümlədən telekommunikasiya infrastrukturunun yaradılması və istehlakçılara xidmətlərin göstərilməsi; təhsil, o cümlədən məktəblərin tikintisi və təmiri, zəruri kommunikasiyaların təminatı, habelə birgə təhsil layihələrində iştirak; səhiyyə - sağlamlığın qorunması sahəsində fəaliyyətdə iştirak, bu sahədə yeni texnologiyaların işlənib hazırlanması və tətbiqi, dərman vasitələrinin istehsalı.

**4. Azərbaycanda, ölkənin davamlı inkişafı üçün əsas tələblər kontekstində, dövlət və özəl sektorlar arasında əməkdaşlıq sferasının obyektiv təhlili və qiymətləndirilməsi zəruridir.**

Xüsusi vurğulanmalıdır ki, Azərbaycanın uzunmüddətli perspektivdə əsas strateji hədəflərindən biri - postneft dövründə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin və davamlı inkişafının təmin edilməsidir. Azərbaycanda belə bir mərkəz kimi Dövlət-Özəl Tərəfdaşlıq (DÖT) Mərkəzi yaradılıb. Bu mərkəzin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır: 1) dövlət və özəl sektorlar arasında əməkdaşlıq kontekstində institusional infrastrukturun inkişafı üçün təkliflərin hazırlanması; 2) dövlət-özəl sektor əməkdaşlığı üzrə proqram və layihələrin hazırlanması, həyata keçirilməsi və əlaqələndirilməsi; 3) dövlət və özəl sektor arasında əməkdaşlıq üçün proqram və layihələrin hazırlanması və həyata keçirilməsində kiçik və orta sahibkarlığın iştirakının genişləndirilməsi; 4) dövlət-özəl əməkdaşlıq haqqında maraqlı tərəflərin biliklərinin artırılması, habelə bu əməkdaşlığın

[8] Фадюшин, И.С. Международный опыт развития ГЧП. Международный научно-исследовательский журнал, №4 (82), - с.41.

meyarlarına uyğun layihələrin hazırlanması və həyata keçirilməsi [9]. Dövlət əməkdaşlıq şərtlərini müəyyən edir, tərəflərin innovasiya və keyfiyyətli rəqəmsal xidmətlərə olan tələbatının ödənilməsi üçün əlverişli şərait yaradır, rəqəmsal texnologiyalardan istifadə etməklə müxtəlif növ monitorinqlər təşkil edir [10].

Bundan əlavə, tərəfimizdən Azərbaycanda 2016-2021-ci illər üçün mikro, kiçik və orta biznesin əsas makroiqtisadi göstəricilərinin müqayisəsi aparıldı və aydın oldu ki, təhlil edilən dövrdə yaradılmış əlavə dəyər 3,9 dəfə, eyni zamanda, bu subyektlərdə çalışan işçilərin sayı 77 min nəfərə yaxın, fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı isə 164,2 min ədəd artmışdır (bax: cədvəl 1).

**Cədvəl 1**

**2016-2021-ci illər üçün Azərbaycanda mikro, kiçik və orta biznesin əsas makroiqtisadi göstəricilərinin müqayisəsi**

| Göstəricilər | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2016-2021-ci illər üzrə müqayisə, +/- |
|---|---|---|---|---|---|---|---|
| Yaradılmış əlavə dəyər, mln. manat | 3587,2 | 3807,6 | 9836,6 | 11071,7 | 10941,0 | 13956,1 | +10368,9 |
| İşçilərin sayı, min nəfər | 281,0 | 290,1 | 283,4 | 332,2 | 348,7 | 357,8 | +76,8 |
| Orta aylıq nominal əmək haqqı, manat | 338,6 | 352,8 | 445,3 | 531,0 | 612,3 | 632,2 | +293,6 |
| Əsas kapitala investisiyalar, mln. manat | 2813 | 2950 | 3114 | 3422,2 | 2 674,1 | 3 387,7 | +574,7 |
| Mövcud sahibkarlıq subyektləri | 191695 | 169603 | 186213 | 271304 | 316370 | 355906 | +164211 |

**Qeyd: ARDNŞ materialları əsasında müəllif tərəfindən hazırlanmışdır -** *https://www.stat.gov.az*

[9] Dövlət-Sahibkar Tərəfdaşlığının İnkişafı Mərkəzi. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi. c.112 - [Elektron resurs] / URL: https://smb.gov.az/az/nav/dovlet-ozel-sektor-terefdasligi.

[10] Balayev, R.Ə. Rəqəmsal aqrar iqtisadiyyatın inkişafinda dövlət - özəl bölmə tərəfdaşlığı // Kənd təsərrüfatının iqtisadiyyatı, – 2021. № 3 (37), – c.18.

Cədvəl 2-də Azərbaycan Respublikasında qeydə alınmış statistik vahidlərin sayının dinamikası təhlil edilmişdir. Buradan göründüyü kimi, 2015-2022-ci illərdə özəl sektor subyektlərində əhəmiyyətli artım baş vermişdir. Onların sayı təqribən 84% artaraq 138,3 min ədəd təşkil etmişdir.

**Cədvəl 2**

**Azərbaycan Respublikasında qeydə alınmış statistik vahidlərin sayının dinamikasının təhlili (1 yanvara olan vəziyyət), 2015-2022-ci illər**

| Göstəricilər | 2015 | 2016 | 2020 | 2021 | 2022 | 2015-2022-ci illərdə statistik vahidlərin artımı/azalması, +/– | 2015-2022-ci illərdə statistik vahidlərin artımı/azalması |
|---|---|---|---|---|---|---|---|
| Cəmi | 94563 | 100325 | 146233 | 155435 | 167140 | +72577 | 76,7 % |
| Dövlət | 10540 | 10646 | 10607 | 10729 | 10757 | +217 | 2,1 % |
| Özəl | 75187 | 80354 | 119887 | 127652 | 138266 | +63079 | 83,9 % |
| Özəl statistik vahidlərin ümumi saydakı payı, % | 79,5 | 80,1 | 82,0 | 82,1 | 82,7 | +3,2 % | 3,2 % |

*Qeyd: ARDNŞ materialları əsasında müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az*

Cədvəl 3-də isə tərəfimizdən 2015-2021-ci illər üzrə Azərbaycanın ÜDM-də qeyri-dövlət sektorunun payı təhlil edilmiş, müəyyən edilmişdir ki, burada artım 5,7%, 2021-ci ildə isə 83,5% təşkil etmişdir.

**Cədvəl 3**

**Qeyri-dövlət sektorunun Azərbaycanın ÜDM-də payının təhlili,%-lə, 2005-2021-ci illər.**

| Göstəricilər | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2015-2022-ci illərdə artım/azalma |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **ÜDM-də payı** | **77,8** | **81,7** | **82,5** | **81,5** | **82,5** | **81,9** | **81,2** | **83,7** | **83,8** | **84,7** | **85,0** | **80,8** | **83,5** | **+5,7** |
| Sənaye | 84,5 | 87,4 | 88,1 | 87,3 | 87,4 | 86,1 | 83,0 | 87,6 | 87,9 | 89,6 | 89,3 | 85,6 | 88,8 | +4,3 |
| Tikinti | 90,4 | 72,0 | 75,3 | 76,0 | 84,5 | 84,3 | 84,5 | 86,8 | 84,6 | 80,2 | 82,9 | 84,6 | 87,5 | -2,9 |
| Kənd təsərrüfatı | 97,8 | 99,7 | 99,3 | 99,4 | 99,4 | 99,8 | 99,8 | 99,9 | 99,9 | 99,9 | 99,9 | 99,9 | 99,9 | +2,1 |
| Ticarət və xidmətlər | 97,8 | 99,2 | 99,7 | 99,7 | 99,8 | 99,8 | 99,6 | 99,6 | 99,7 | 99,8 | 99,7 | 99,9 | 99,7 | +1,9 |
| Nəqliyyat | 37,5 | 75,3 | 78,1 | 77,7 | 77,1 | 78,5 | 81,7 | 82,8 | 82,4 | 83,1 | 83,6 | 80,1 | 84,8 | +47,3 |
| Rabitə | 80,2 | 78,6 | 76,3 | 76,6 | 76,8 | 80,0 | 81,0 | 80,5 | 81,2 | 82,0 | 82,4 | 80,8 | 81,5 | +1,3 |
| Sosial və digər xidmətlər | 31,8 | 47,0 | 49,4 | 49,1 | 51,5 | 55,2 | 57,8 | 58,0 | 56,1 | 56,4 | 58,2 | 51,0 | 52,5 | +20,7 |

*Qeyd: ARDNŞ materialları əsasında müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az.*

Bu dövrdə nəqliyyat sektorunun payı 37,5 faizdən 84,8 faizə, sosial və digər xidmətlərin payı 31,8 faizdən 52,5 faizə yüksəlib. Lakin biz hesab edirik ki, məhz bu sahələrdə dövlət və özəl sektor arasında əməkdaşlığın genişləndirilməsi üçün ehtiyatlar mövcuddur.

Dövlət-özəl sektor əməkdaşlığının effektivliyini müəyyən etmək üçün biz fərdi sahibkarlara verilən güzəştli kreditlər və yeni iş yerləri arasında korrelyasiya və reqressiya təhlili apardıq (bax: Cədvəl 4).

**Cədvəl 4**

**Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlara verilən güzəştli kreditlərin dinamikası (min manat) və yaradılmış iş yerlərinin sayı (vahid), 2010-2022**

| Показатели | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Сумма льготных кредитов | 5609 | 6478 | 9100 | 12045 | 12564 | 12600 | 8106 | 6591 | 8934 | 5363 | 6703 | 6819 | 9562 |
| количество созданных рабочих мест | 115000 | 138000 | 218000 | 275000 | 295000 | 248500 | 189400 | 146000 | 160200 | 175000 | 255067 | 238004 | 243561 |

*Qeyd: Sahibkarlığın İnkişafı Fondunun materialları əsasında müəllif tərəfindən hazırlanmışdır - http://edf.gov.az/az/content/22.*

Dependent Variable: X
Method: Least Squares
Date: 12/15/23 Time: 12:03
Sample: 2010 2021
Included observations: 12

| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| Y | 0.032822 | 0.009975 | 3.290506 | 0.0000 |
| C | 1699.463 | 2114.759 | 0.803620 | 0.0000 |

| | | | |
|---|---|---|---|
| R-squared | 0.519864 | Mean dependent var | 8409.333 |
| Adjusted R-squared | 0.471850 | S.D. dependent var | 2671.133 |
| S.E. of regression | 1941.217 | Akaike info criterion | 18.13103 |
| Sum squared resid | 37683221 | Schwarz criterion | 18.21185 |
| Log likelihood | -106.7862 | Hannan-Quinn criter. | 18.10111 |
| F-statistic | 10.82743 | Durbin-Watson stat | 1.755940 |
| Prob(F-statistic) | 0.008143 | | |

Güzəştli kreditlərin məbləği ilə yaradılan iş yerlərinin sayı arasında qurulan reqressiya tənliyi belədir:

APL= 1699,463 + 0,032*NJC
(2114,75) (0,0099

Burada, APL – güzəştli kreditlərin məbləğidir, NJC – yaradılmış iş yerlərinin sayıdır.

Bizim nümunəmizdə Y əlaməti ilə X faktoru arasındakı əlaqə orta və birbaşadır.

Orta elastiklik əmsalı E göstərir ki, x faktoru orta qiymətindən 1% dəyişdikdə y nəticə orta qiymətindən orta hesabla neçə faiz dəyişəcək. Elastiklik əmsalı bu düsturla tapılır.

Giriş parametrlərini bilməklə, biz elastiklik əmsalını bu dsturla hesablaya bilərik: $E = \frac{\Delta y}{\Delta x} \times \frac{x}{y} = b\frac{x}{y} \sim 0.65$ Beləliklə, elastiklik əmsalı 1-dən azdır. Ona görə də güzəştli kreditlərin məbləği 1% dəyişərsə, iş yerlərinin sayı 1%-dən az dəyişəcək. Başqa sözlə, güzəştli kreditlərin məbləğinin (Y) iş yerlərinin sayına (X) təsiri əhəmiyyətli deyil. Yəni R2 ≈0,5. Bu o deməkdir (X) 51,99% olduqda (Y)-i dəyişikliklərə gətirib çıxarır. Başqa sözlə, reqressiya tənliyinin seçilmə dəqiqliyi orta səviyyədədir. Dəyişikliyin qalan 48,01%-i (Y) modeldə nəzərə alınmayan amillərlə izah olunur.

Güzəştli kreditlərin (Y) məbləğinin yaradılmış iş yerlərinin sayından (X) asılılığı öyrənilmişdir. Spesifikasiya mərhələsində qoşalaşmış xətti reqressiya seçilmişdir. Tənliyin statistik əhəmiyyəti təyinetmə əmsalı və Fisher testindən istifadə etməklə yoxlanılmışdır. Məlum olub ki, tədqiq olunan vəziyyətdə Y-də ümumi dəyişkənliyin 51,99%-i X-in dəyişməsi ilə izah olunur. Model parametrlərinin iqtisadi şərhi mümkündür - X-in 1 vahid artması. Y-nin orta hesabla 1699,463 vahid artmasına səbəb olur.

Xətti korrelyasiya əmsalı 0,721-dir, buna görə də Y əlaməti ilə X faktoru arasındakı əlaqə yüksək və birbaşadır. Elastiklik əmsalının təhlili X-nin Y-yə əhəmiyyətsiz təsirini göstərir. Təxmini xəta 7%-dən azdır ki, bu da tapılan modelin yaxşı keyfiyyətini göstərir.

Nəticədə güzəştli kreditlərin məbləğinin yaradılan iş yerlərinin sayına maksimum və minimum təsirini tapdıq.

Etibarlılığı 95% olan reqressiya əmsallarının etimad intervallarını növbəti düsturla müəyyən edək:

$$(b - t_{крит}\,S.e.\,(b_2) \leq \beta \leq b + t_{крит}\,S_e\,(b_2)$$

$$0,032822 - (0,009975 \times 2,22) \leq \beta \leq 0,032822 + (0,009975 \times 2,22)$$

$$0.011 \leq \beta \leq 0.055$$

buradan belə nəticə çıxır ki, 1 vahidin (APL) dəyişməsi 0,011-dən 0,055 vahidə (NJC) təsir edəcək. Beləliklə, etimad intervalı bizə dəyişəndəki mümkün dəyişikliyin interval təsvirini verir.

**5. Ən mühüm fəaliyyət sahələrinin obyektiv qiymətləndirilməsi və bu istiqamətdə mövcud potensialın üzə çıxarılması ilə dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizminin təmin edilməsi strateji əhəmiyyət kəsb edir.**

Dövlət və iqtisadiyyat arasında səmərəli qarşılıqlı əlaqə forması kimi dövlət-özəl tərəfdaşlıq mexanizminin təkmilləşdirilməsi aşağıdakı inkişaf sahələrinin hərtərəfli nəzərdən keçirilməsini şərtləndirir: 1. Büdcədənkənar maliyyə mənbələrinin cəlb edilməsi yolu ilə infrastrukturun inkişafının proqnozlaşdırılması və planlaşdırılmasının səmərəliliyinin artırılması. 2. Ölkədə dövlət-özəl əməkdaşlığı mexanizminin təkmilləşdirilməsi sahəsində normativ -hüquqi bazanın hazırlanması. 3. Dövlət və biznes arasında qarşılıqlı əlaqənin yaxşılaşdırılması üçün bütün səviyyələrdə dövlət-özəl əməkdaşlığı mexanizminin idarəetmə sisteminin işlənib hazırlanması. 4. Dövlət-özəl əməkdaşlıq sektorunun maliyyələşdirilməsi mexanizmlərinin genişləndirilməsi və inkişafı. 5. Dövlət-özəl əməkdaşlıq sahəsində rəqabətin artması. Dövlət-özəl əməkdaşlığı inkişaf etdirmək üçün vahid xüsusi qurumun yaradılması əhəmiyyətli ola bilər.

**6. Hazırkı çətin qlobal iqtisadi şəraitdə dövlət və özəl sektorlar arasında münasibətlər proseslərində institusional əsasların gücləndirilməsinə ehtiyac var.**

Dövlət və özəl sektor arasında əlaqələrin inkişafı üçün institusional bazanın möhkəmləndirilməsi məsələləri mövcud dövlət mexanizmlərinin, o cümlədən bu istiqamətdə hüquqi bazanın dərindən təkmilləşdirilməsini tələb edir.

Yuxarıda göstərilən problemlər üzrə toplanmış təcrübəni nəzərə alsaq, qeyd etmək olar ki, aşağıdakılar xarici və yerli normativ-hüquqi bazada dövlət-özəl tərəfdaşlığının əsas prinsipləri kimi qəbul edilir: 1) dövlət və özəl tərəfdaşların qanun qarşısında bərabərliyi; 2) tərəfdaşlıqda prosedur və qaydaların şəffaflığı və əlçatanlığı; 3) dövlət və özəl tərəfdaşların, habelə əhalinin, istehlakçıların və digər maraqlı tərəflərin məqsədləri nəzərə alınmaqla, dövlət-özəl əməkdaşlığı çərçivəsində layihələrin tətbiq edilməsi; 4) müsabiqə əsasında özəl tərəfdaşın müəyyən edilməsi və iştirakçılara heç bir ayrı-seçkilik qoyulmadan müsabiqəyə sərbəst giriş və s.

Şəkil 3-də indiki şəraitdə institusional və hüquqi bazanın inkişafı, habelə bir sıra mühüm strateji amillər nəzərə alınmaqla dövlət-özəl tərəfdaşlığının təkmilləşdirilməsi sahələri və istiqamətləri göstərilir.




**Şəkil 3. Dövlət-özəl tərəfdaşlığın təkmilləşdirilməsi istiqamətləri (müəllif tərəfindən tərtib edilmişdir)**

Şəkil 3-ə əsasən bir sıra nəticələr çıxarmaq olar. İlk növbədə qeyd etmək lazımdır ki, dövlət-özəl tərəfdaşlıq sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi tələb olunur.

Qeyd edək ki, dövlətimizin böhran zamanı özəl sektora dəstək vermək təcrübəsi var. Məsələn, 2020-ci ildə Azərbaycanda iqtisadi sahibkarlıq subyektlərinin dəstəklənməsi çərçivəsində vergitutma sahəsində bir sıra güzəştli tədbirlər həyata keçirilib. Sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün vergi alətlərinə sadələşdirilmiş vergi güzəştləri, habelə ƏDV, gəlir, torpaq, əmlak vergilərindən və s. üzrə azadolmalar daxil edilmişdir. Təkcə xidmət sektoru subyektləri üçün 2020-ci ilin yanvar ayından etibarən koronavirus pandemiyası ilə əlaqədar vergi güzəştləri 67 milyon ABŞ dolları təşkil edib.

Ümumilikdə, Azərbaycanda yaxın gələcəkdə dövlət və özəl sektor arasında əməkdaşlığın genişlənməsinin intensivləşməsini proqnozlaşdırmaq olar və bu, aşağıdakı amillərlə bağlıdır: 1) pandemiyadan sonrakı dövrdə pandemiyanın mənfi nəticələrinin aradan qaldırılması üçün ölkədə dövlət və özəl sektorlar arasında əməkdaşlığın genişləndirilməsi üçün daha məhsuldar və səmərəli mexanizm tələb olunur; 2) erməni qəsbkarları tərəfindən işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi və bərpası, yeni yaradılmış iqtisadi rayonların - Qarabağ və Şərqi Zəngəzurun inkişafının sürətləndirilməsi üzrə genişmiqyaslı işlərə intensiv yanaşma və alternativ maliyyə mənbələri tələb olunur ki, bu da bütövlükdə Azərbaycanın davamlı inkişafı və dünyada rəqabət qabiliyyətinin artırılması üçün stimul olacaqdır. Bütün bunlara "Dövlət-özəl sektor tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli Qanununun qəbulu əhəmiyyətli dərəcədə kömək edə bilər [11]. Belə tam hüquqlu və mütərəqqi müasir qanunun mövcudluğu bizə indiki şəraitdə Azərbaycanda dövlət və özəl sektor subyektləri arasında əməkdaşlığın intensivliyinin və məhsuldarlığının artacağını proqnozlaşdırmağa imkan verir.

**7. Təbii və iqtisadi sərvətlərdən səmərəli istifadəni nəzərə almaqla ölkənin regionlarında dövlət və özəl sektor arasında əməkdaşlığın dərinləşdirilməsi üçün ən mühüm istiqamətlərin və prioritetlərin dərk edilməsi və müəyyənləşdirilməsi tələb olunur.**

---

[11] Dövlət-özəl tərəfdaşlığı haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 9 dekabr 2022-ci il. № 691-VIQ.

Qeyd edək ki, ölkənin regionlarında dövlət və özəl sektor arasında əməkdaşlıq proseslərinin intensivləşdirilməsi problemləri bir sıra xüsusiyyətlərinə görə fərqlənir. İlk növbədə əhalini narahat edən və yaşayış məntəqələrində diskomfort yaradan müasir problemləri nəzərdən keçirmək lazımdır. Bunun üçün elektrik enerjisinin, təbii qazın, içməli suyun, istilik enerjisinin və s. fasiləsiz verilməsini təmin etmək lazımdır.

İdarəetmə forması kimi dövlət-özəl əməkdaşlıq regional iqtisadiyyatın mütəşəkkil dayanıqlıq səviyyəsini və onun rəqabət qabiliyyətini artırır [12]. Dövlət strukturları ilə özəl biznes sektoru arasında səmərəli qarşılıqlı əlaqə kimi dövlət-özəl əməkdaşlığının inkişafı regionlarda sosial əhəmiyyətli problemlərin həllinin səmərəliliyini artırmağa imkan verir.

Dövlət-özəl tərəfdaşlıq mexanizmindən istifadə edərək, biz, "Dövlət-özəl tərəfdaşlıq çərçivəsində regional resurslardan səmərəli istifadənin metodoloji mexanizmi"ni Şəkil 4-də təklif edirik.

[12] Фалалеев, А.Н., Кузьмин, Д.И. Механизм управления государственно-частным партнерством в регионе. Вестник Сибирского государственного аэрокосмического университета имени академика М.Ф. Решетнева, – 2012, – с.221.




**Şəkil 4. Dövlət-özəl tərəfdaşlıq çərçivəsində regional resurslardan səmərəli istifadənin metodik mexanizmi**
*(mənbə: müəllif tərəfindən tərtib edilmişdir)*

**8. Pandemiyadan sonrakı dövrdə və qlobal təhlükələrin artması kontekstində Azərbaycanın davamlı inkişafının təmin edilməsində dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizminin təkmilləşdirilməsi üçün ən mühüm istiqamətlərin əsaslandırılmasına və müəyyənləşdirilməsinə ehtiyac var.**

Azərbaycanın dövlət və özəl sektorları arasında əməkdaşlığın inkişaf perspektivləri müasir dünyada dünyada yeni çağırışlar və tələblər əsasında ardıcıl tədbirlərin həyata keçirilməsini tələb edir.

Qeyd etmək istərdik ki, son illər yaşıl iqtisadiyyatın və yaşıl enerjinin prinsiplərinin və infrastrukturunun inkişafına xüsusi diqqət yetirilir. Qürurverici haldır ki, 2024-cü ilin noyabr ayında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyasının qlobal tədbirləri Azərbaycanda təşkil olunacaqdır[13]. Hesab edirik ki, ekoloji təhlükəsizliyin gücləndirilməsi, atmosferə atılan tullantıların həcminin minimuma endirilməsi və iqlim dəyişikliyinin mənfi nəticələrinin azaldılması çərçivəsində ciddi ehtiyatlar mövcuddur və dövlət-özəl sektor əməkdaşlığının dərinləşdirilməsi üçün prioritet istiqamətlərdən səmərəli istifadə etmək mümkündür. Azərbaycanda özəl sektorun subyektləri sənaye tullantılarının təkrar emalı üzrə müəssisələr yarada, həmçinin yaşıl enerjinin inkişafına investisiya yatıra bilərlər və s.

Şəkil 5-də Azərbaycanda pandemiyadan sonrakı dövrdə və işğaldan azad edilmiş torpaqların dirçəldilməsi kontekstində davamlı inkişafın təmin edilməsində dövlət və özəl sektorlar arasında əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi üzrə əsas istiqamətlərin blok-sxemi göstərilir.

[13] Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncam, Bakı, 25 dekabr 2023.




**Şəkil 5. Azərbaycanda pandemiyadan sonrakı dövrdə və işğaldan azad edilmiş torpaqların dirçəldilməsi kontekstində davamlı inkişafın təmin edilməsində dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizminin təkmilləşdirilməsinin əsas istiqamətlərinin blok-sxemi (müəllif tərəfindən hazırlanmışdır).**

Yaxın dövrdə, müasir çağırışlar və qlobal təsirlər nəzərə alınmaqla, davamlı inkişaf kontekstində dövlət və özəl sektorun

səmərəliliyinin artırılması üçün mövcud mexanizmlərin və yanaşmaların təkmilləşdirilməsi vacibdir.

**Dissertasiya işinin əsas nəticələri və təklifləri:**

1. Nəzəri-metodoloji yanaşmalara və dövlət və özəl sektorlarının subyektləri arasında qarşılıqlı əlaqənin müasir prioritetlərinə əsaslanaraq hesab edirik ki, əhalinin həyat şəraitinin yaxşılaşdırılması proseslərinin, dövlət və biznesin qarşılıqlı fəaliyyəti üçün səmərəli layihələrin həyata keçirilməsi, müasir şəraitdə ölkədə strateji məsələlər və yığılmış problemlər üzrə dövlət və özəl strukturların subyektlərinin fəaliyyətinin optimal əlaqələndirilməsini nəzərə alaraq, Azərbaycanda cəmiyyətin və dövlətin inkişafının ən mühüm məsələlərini ardıcıl surətdə araşdırmaq lazımdır.
2. Hesab edirik ki, Azərbaycanda dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi sahəsində Yaponiya təcrübəsini araşdırmaq lazımdır. Belə ki, Yaponiyada infrastruktur sahəsini, o cümlədən sosial istiqaməti əhatə edən irimiqyaslı investisiya və innovasiya layihələri ardıcıl olaraq həyata keçirilir. Məhz bu sahələrdə Azərbaycanın buna bənzər layihələr və tədbirlər hazırlayıb həyata keçirməsinə ehtiyac var. Yaponiyada dövlət və özəl sektorlar arasında qarşılıqlı əlaqə ictimai nəqliyyatın, sosial enerji sisteminin, ictimai infrastrukturun təkmilləşdirilməsi, yeni məktəb və xəstəxanaların tikintisi və s. yaxşılaşdırılması üzərində cəmlənib. Bütün bunlar, təbii ki, ölkə əhalisinin həyat şəraitinin yaxşılaşdırılmasına kömək edir - eyni məqsəd və vəzifələr Azərbaycan üçün də aktualdır.
3. Qeyd etmək olar ki, Azərbaycanda milli iqtisadiyyatın ən mühüm istiqamətləri və strateji məqsədləri formalaşmış və müəyyənləşdirilmişdir ki, onlar ilk növbədə uzunmüddətli perspektivdə ölkənin davamlı inkişafı baxımından milli iqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsini, neft amilindən asılılığının azaldılmasını nəzərdə tutur.
4. Azərbaycanda milli iqtisadiyyatın şaxələndirilməsi, ölkənin qısa, orta və uzunmüddətli perspektivdə davamlı inkişafının gücləndirilməsi üçün zəmin yaradılması istiqamətində məqsədyönlü işlər aparılır. Ölkə əhalisinin və təsərrüfat subyektlərinin enerji resursları ilə dayanıqlı təmin edilməsi üçün ölkədə istehsal müəssisələri mövcuddur. Bütün

bunlar bizə sosial və istehsal infrastrukturunun geniş şəbəkəsini yaratmaq üçün perspektivli investisiya və innovasiya layihələrini işləyib hazırlamağa və həyata keçirməyə imkan verir.

5. Azərbaycanda ölkə regionlarının sosial-iqtisadi inkişafının davamlılığını artırmaq üçün yeni çağırışların tələblərinə cavab verən balanslaşdırılmış regional siyasət aparır. Bundan əlavə, yeni rayonlaşdırmadan sonra ölkənin iqtisadi rayonlarının sayı 12-dən 14-ə yüksəldi - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yeni yaradıldı. Ona görə də hesab edirik ki, regionlarda yeni iri innovasiya və investisiya layihələrinin həyata keçirilməsində dövlət və özəl sektor arasında əməkdaşlıq proseslərinin genişləndirilməsi üçün yeni reallıqlar və imkanlar yaranmışdır.
6. Yaxın və uzunmüddətli perspektivdə davamlı inkişaf kontekstində dövlət və özəl sektor arasında əməkdaşlıq sahəsində fəaliyyətin səmərəliliyinin və genişləndirilməsinin təmin edilməsi üçün əsas prinsiplər və perspektiv istiqamətlər arasında aşağıdakılar tələb olunur: 1) bu istiqamətdə konseptual yanaşmaların yenilənməsi; 2) qlobal çağırışlar və transformasiyalar nəzərə alınmaqla əməkdaşlığın gücləndirilməsi üçün yeni prioritetlərin müəyyən edilməsi; 3) dövlət və özəl sektor subyektləri arasında qarşılıqlı əlaqənin daha konkret sahələrinin müəyyən edilməsi; 4) sosial-iqtisadi problemlərin həllində özəl sektorun fəaliyyətinin gücləndirilməsinin daha mütərəqqi forma və üsullarının yaradılması; 5) əhalinin daha yaxşı həyat şəraitinin təmin edilməsi problemlərinin həllində özəl sektor subyektlərinin fəaliyyətini stimullaşdırmaq üçün yeni dövlət mexanizmlərinin və alətlərinin işlənib hazırlanması və tətbiqi, və s.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:**

1. Укрепление сотрудничества государственного и частного сектора в обеспечении устойчивого развития Азербайджана// “Geostrategiya” jurnalı, Bakı, 2020, № 05-06, S.112-116.
2. Стратегические вопросы расширения сотрудничества государственно-частного сектора в Азербайджане в постпандемическом периоде // “Geostrategiya” jurnalı,2021 № 04, S.144-148.

3. Актуальные проблемы совершенствования механизмов сотрудничества государственного и частного сектора в контексте их устойчивого развития// “Xəbərlər” jurnalı (AMEA İqtisadiyyat İnstitutu), Bakı, 2020, № 05. – S.49-57.
4. Опыт стран мира по совершенствованию взаимодействия государственно-частного сектора в современных условиях// “Xəbərlər” jurnalı (AMEA İqtisadiyyat İnstitutu), Bakı, 2021, № 06. – S.127-134.
5. Важнейшие аспекты теоретико-методологических подходов с учётом рисков в проектах государственно-частного партнерства// “Geostrategiya” jurnalı, Bakı, 2022, № 04. – S.114-118.
6. Оценка и перспективы усиления механизма сотрудничества государственно-частного сектора в Азербайджане// Журнал «Финансовая экономика», России, Москва, 2022, № 08. – С.159-162.
7. Важные аспекты сотрудничества государственно-частного сектора в условиях роста глобальных рисков/ “İnformasiya cəmiyyətində iqtisadiyyatin davamli inkişaf problemləri” mövzusunda Beynəlxalq Elmi konfransının materialları. SDU, Sumqayıt, 16-17 dekabr 2021-ci il. – S. 642-646.
8. Роль технопарков в процессах сотрудничества государственно-частного сектора/ Azərbaycan və Türkiyənin iqtisadi əməkdaşlığının strateji istiqamətləri. Beynəlxalq Elmi konfransının materialları. Sumqayıt Dövlət Universiteti və Yildiz Teknik Üniversitesi. Sumqayıt, 26-27.05.2022-ci il. – С. 240-242.
9. Важнейшие вопросы развития сотрудничества государственного и частного секторов в регионах Азербайджана/ Материалы XI Международной Научно-Практической Конференции «Современные проблемы цивилизации и устойчивого развития в информационном обществе». России, Москва, 20.08.2022 . – С.265-273.

Dissertasiyanın müdafiəsi "30" oktyabr 2024-cü il tarixdə saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin www.unec.edu.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "28" sentyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.09.2024
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (38938 işarə). Tiraj 100.

*"AA – Poliqraf" istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*

*Əlaqə üçün:* capevi@internet.ru */ (+99455) 201-2809*